# Ali Rəhbər Həzrət Zəhranın (s.ə) şəhadətinə həsr olunmuş matəm mərasimində iştirak etdi - 5 /Jan/ 2022

İslam İnqilabının Rəhbərinin iştirakı ilə İmam Xomeyni (r.ə) adına hüseyniyədə Həzrət Fatimeyi-Zəhranın (s.ə) şəhadət gecəsinə həsr edilmiş matəm mərasimi keçirildi.

Mərasimdə çıxış edən Höccətül-İslam vəl-müslimin Rəfii Fatimə (s.ə) ailəsinin bir müsəlman ailəsi modeli olduğunu dedi: “Allahmərkəzlik, dini tərbiyə, ailə üzvlərinin hüquqlarına riayət edilməsi, sadə yaşamaq, israfdan qorunmaq, sədaqət, əmanət və vəfa kimi əxlaqi dəyərlərin hakimiyyəti, sevgi və məhəbbət Fatimə (s.ə) ailəsinə xas olan cəhətlərdəndir”.

Mərasimdə iştirak edən cənab Mahmud Kərimi rövzə və mərsiyə oxudu.

**Materialdan istifadə edərkən WWW.LEADER.İRsaytına istinad zəruridir**